# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“2026-cı il üzrə dövlət-özəl tərəfdaşlığı layihələrinin siyahısı”nın təsdiq edilməsi haqqında**

“Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun 8.1-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 18 mart tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət-özəl tərəfdaşlığı Qaydaları”nın 7.1-ci bəndinin icrası məqsədilə:

1. “2026-cı il üzrə dövlət-özəl tərəfdaşlığı layihələrinin siyahısı” təsdiq edilsin (əlavə olunur).
2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən siyahının “Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikası Qanununun 35.1-ci maddəsinə uyğun olaraq özünün məlumat bazasında və rəsmi internet səhifəsində yerləşdirilməsini, mediada (o cümlədən nüfuzlu xarici və beynəlxalq mediada) dərc etdirilməsini təmin etsin.
3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatı
ÜMUMİ ŞÖBƏ

Bakı şəhəri, “ 11 ” “ iyul ” 2025-ci il

№ 420s

Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
“ 11 ” iyul tarixli
420s nömrəli Sərəncamı ilə
**təsdiq edilmişdir.**

**2026-cı il üzrə dövlət-özəl tərəfdaşlığı layihələrinin siyahısı**

| **Sıra №-si** | **Layihənin adı** | **Sektor** | **Dövlət tərəfdaşı** |
|---|---|---|---|
| 1. | Bakı şəhərində elmi-texnoloji parkın inşası və idarə edilməsi layihəsi (mərhələ 2 və 3) | Təhsil | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi |
| 2. | Lənkəran rayonunda bərk məişət tullantılarının idarə edilməsi layihəsi | Ekologiya | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| 3. | Heyvan cəsədlərinin  və bioloji tullantıların  utilizasiya mərkəzlərinin inşası layihəsi | Qida təhlükəsizliyi | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi |
| 4. | Hövsan aerasiya (ÇSTQ) qurğusunun təmiri və çirkab suların təkrar emalı ilə bağlı yeni qurğuların quraşdırılması layihəsi | Su | Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi |
| 5. | Kəlbəcər rayonunda turizm-rekreasiya  (istirahət) zonasının yaradılması layihəsi | Turizm | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi |
| 6. | Yük avtonəqliyyat parklarının (TIR parklarının) yaradılması layihəsi | Nəqliyyat | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |